*UOT 371*



***Akif Nurağa oğlu Abbasov***
*pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*
*https://orcid.org/0000-0002-9210-7141*

## ATA YOLUNUN LAYİQLİ DAVAMÇISI

***Акиф Нурага оглу Аббасов***
*доктор педагогических наук, профессор, Заслуженный учитель*
*ученый секретарь Института Образования Азербайджанской Республики*

## ДОСТОЙНЫЙ ПРОДОЛЖАТЕЛЬ ОТЦОВСКОГО ПУТИ

***Akif Nuragha Abbasov***
*doctor of pedagogical sciences, professor, Honored teacher*
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan*

## A WORTHY CONTINUER OF THE FATHER'S WAY

Söhbət çağdaş pedaqogika elminin layiqli, ləyaqətli nümayəndəsi, dostumuz, həmkarımız, gözəl insan, dəyərli alim, bir sıra əcnəbi akademiyaların həqiqi üzvü Hümeyir Hüseyn oğlu Əhmədovdan gedəcək. Hümeyir müəllim görkəmli Azərbaycan pedaqoqu, pedaqogika elmləri doktoru, professor, Əməkdar ali məktəb işçisi, Prezident təqaüdçüsü, Rusiya Təhsil Akademiyasının xarici üzvü Hüseyn Mustafa oğlu Əhmədovun oğludur. Ata yoluna nəzər yetirərək müəllimlik peşəsini, elm yolunu seçib.

Bu il pedaqogika elmləri doktoru, professor H.H. Əhmədovun anadan olmasının 65 illiyi tamam olur. Hümeyir müəllim ötüb keçən illəri vərəqlədikcə həyatının xoş, acılı-şirinli anlarını, çətinliklərini və uğurlarını gözləri önünə gətirir. Gah sevinir, gah kövrəlir, gah da iftixar hissi keçirir. Necə deyərlər fikirləşir ki, "papağını heç də havayı yerə günə yandırmayıb", çəkdiyi zəhmətin bəhrəsini görüb.

Uşaqlıq, yeniyetməlik, ilk gənclik, gənclik illəri, yaxın zamanlarla bağlı günlər dil açıb danışır.

**Ömrümüzə bəzəkdir, uşaqlıq illəri**
(*uşaq mahnısından*)

Hümeyir Əhmədov 1958-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Adi uşaqlıq həyatı

keçirib. Yaxşı ailə tərbiyəsi alıb. Valideyn nümunəsi onun kamil bir insan kimi formalaşmasına öz təsirini göstərib. Səhər ertə yuxudan duranda da, gecə yatağına uzananda da atası Hüseyn müəllimi yazı masası arxasında görüb. Özözünə fikirləşib: "Bəs ata nə zaman yatır? Nə çox işləyir, nə çox yazıb-pozur?"

Atasının nəşr olunan kitablarına baxanda çox sevinib: "O yuxusuz gecələrin məhsuludur bu kitablar!" – deyə düşünüb. Özünü Hüseyn müəllimə oxşatmağa, onun kimi zəhmətsevər olmağa çalışıb. Kitaba, dərsliklərə bağlanıb, yaxşı oxumağa səy göstərib.

Bakı şəhəri Binəqədi rayonu 30 nömrəli orta məktəbin birinci sinfinə gedib, sonralar 246 nömrəli məktəbdə təhsilini davam etdirib və həmin məktəbin məzunu olub. Həmişə dərslərini yetirib. Sinfin əlaçı şagirdlərindən biri olub. Müəllimlər ondan razılıq ediblər.

Hümeyir orta məktəblə yanaşı eyni zamanda 11 nömrəli uşaq musiqi məktəbində təhsil alıb (1967-1972). Elxan Səlimxanovun tar sinfini bitirib).

Orta məktəbdə oxuyarkən musiqi ilə yanaşı riyaziyyat fənninə böyük maraq göstərib. Həmin maraq onu Azərbaycan Dövlət Pedaqoji İnstitutuna gətirib.

**"Sızlar ürəyimin telləri..."**

Bir mahnıda deyildiyi kimi, tələbəlik illəri yada düşəndə adamın ürəyi sevincindən çırpınır. Hümeyir də bu hissləri yaşayıb. Həmin illəri tez-tez xatırlayır. Axı gəncliyinin müəyyən illəri ali məktəblə bağlı olub. Pedaqoji İnstitutun riyaziyyat fakültəsinə qəbul olunub. Mühazirələrdə həvəslə iştirak edər, elə auditoriyadaca oxunan mühazirəni öyrənməyə çalışırdı ki, evdə mövzuya aid əlavə materiallar axtarıb tapsın ki, seminar məşğələlərində fəallıq nümayiş etdirsin.

O, ali təhsil müəssisəsinin ictimai həyatında da fərqlənirdi. Tələbə Elmi Cəmiyyətinin və tələbə özünüidarə orqanlarının üzvü idi. İnstitutda rəngarəng tədbirlərin təşkilinə öz köməyini göstərirdi. Təşəbbüskarlıq və müstəqillik qabiliyyətlərinə, təşkilatçılıq bacarığına malik idi. Ali məktəbdə təhsil ala-ala Zaqafqaziya Komsomol Məktəbinə də yazılmışdı. Həmin məktəbi əla qiymətlərlə bitirdi. Bundan başqa, institutun ictimai peşələr fakültəsinin jurnalistika şöbəsinin də dinləyicisi oldu, buranı fərqlənmə diplomu ilə başa vurdu.

H.H. Əhmədov müxtəlif illərdə ikinci ali təhsil (bakalavriat və magistratura) təhsili alıb, növbəti diplomlara sahib olub. Beləliklə, vaxtilə riyaziyyat müəllimi ixtisasına yiyələnməklə, riyaziyyat müəllimi işləməklə yanaşı, onun həm də mülki hüquq üzrə magistr dərəcəsi var. Sadəcə, bu sahədə fəaliyyət göstərməyib.

**Bütün peşələrin tacı – MÜƏLLİMLİK**

İyirminci yüzillikdə indiki kimi deyildi. Ali məktəbi bitirəndə məzunlara təyinat verilirdi. Təyinatda hansı şəhərdə, rayonda müəllimlik fəaliyyəti ilə məşğul olacağı göstərilirdi. Azad təyinatlar da olurdu. Təyinatdan yayınma halları hətta təhsildə fərarilik kimi qiymətləndirilir, bir sıra hallarda təyinat yerinə getməyənlər cəzalandırılırdılar.

Bakı sakini olmasına baxmayaraq Hümeyir müəllimə Xaçmaz rayonuna təyinat verildi. Məzunların artıq hansı məktəbdə çalışacağını həmin rayonun Xalq Maarif Şöbələri müəyyən edirdi. O zamanlar bəzi rayonlarda dəmiryol məktəbləri vardı. Həmin məktəblər Bakıda yerləşən Dəmiryol Məktəblər İdarəsinin tabeçiliyindəydi. Dəmiryol Məktəblər İdarəsi Hümeyir müəllimi Xaçmaz stansiyası 45 nömrəli dəmiryol orta məktəbinə göndərdi. Riyaziyyat müəllimi kimi işə başladı.

O, ilk günlər özünü çox narahat hiss edirdi. Sinif otağına həyəcan içərisində girsə də, tezliklə şagirdlərə öyrəşdi, onların etibarını qazandı. Riyaziyyatı böyük sevinc və həvəslə şagirdlərə öyrədirdi.

Öz peşəsini sevirdi, onun vurğunu idi. O, dərsə başlayanda Ü. Hacıbəylinin aşağıdakı sözlərini yadına salar və ona əməl edərdi: "Müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Yalnız bir təlimdən başqa uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir. Uşaq dəxi qabili - tərbiyə bir şey olduğuna görə, onu nə tövr tərbiyə etsən, o cür də adam çıxar. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub, evini yıxar".

Hər bir şəxs Vətən qarşısında müqəddəs borcunu yerinə yetirməlidir. Söhbət ordu sıralarında hərbi xidmətdən, Vətənin müdafiəsindən gedir. Vaxt tamama yetişdi, Hümeyir müəllim də hərbi xidmətə yola düşdü. Onun sorağı Uzaq Şərq Hərbi dairəsinin Xabarovsk-Vladivostok

diyar hərbi hissələrinin birindən gəldi. O vaxtlar biz SSRİ-nin tərkibində idik, Azərbaycanla yanaşı SSRİ də bizim vətənimiz sayılırdı. Ordu sıralarından qayıdandan sonra Hümeyir müəllim pedaqoji fəaliyyətini Saatlı stansiyası 33 nömrəli dəmiryol orta məktəbində davam etdirdi. İndi artıq riyaziyyat fənni ilə yanaşı fizika və əmək dərslərini də aparırdı.

1983-1984-cü illərdə təyinatını başa vurub Bakıya gələn H.H. Əhmədov Cəmşid Naxçıvanski adına hərbi təmayüllü orta məktəbdə tərbiyəçi-müəllim, daha sonra A.S. Makarenko adına 12 nömrəli rus dili təmayüllü internat məktəbində riyaziyyat müəllimi vəzifələrində çalışdı.

**"Elm sərkərdə, təcrübə onun əsgəridir"** (*Leanardo da Vinçi*)

Arzular tükənmək bilmir. Hümeyir müəllim 5 il müxtəlif məktəblərdə müəllim işlədi. Yaxşı riyaziyyat müəllimi olduğunu əməli fəaliyyəti ilə sübuta yetirdi. Müəllim kimi işləməkdə davam edə bilərdi. Fəqət hiss elədi ki, elmin daşlı-kəsəkli yolları onun yuxusunu ərşə çəkib. Bu sonsuz maraq onu Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna (hazırda Təhsil İnstitutu) gətirib çıxardı. Aspiranturanın əyani şöbəsinə qəbul edildi. Pedaqogika nəzəriyyəsi və tarixi ixtisasını seçmişdi. Dissertasiya mövzusu "Azərbaycan SSR-də hamılıqla ümumu orta təhsilə keçilməsinə hazırlıq və həyata keçirilməsi (1961-1977-ci illər)" kimi müəyyənləşdirildi. Elmi rəhbər o zaman pedaqoji elmlər namizədi olan Əjdər Ağayev (*sonralar elmlər doktoru, professor*) təyin olundu. Dissertasiyanı tamamlayaraq 1988-ci ildə müdafiə etdi.

Hümeyir müəllim professor Zahid Qaralovun rəhbərlik etdiyi Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun aspiranturasında əyani təhsil almaqla yanaşı həm də SSRİ Pedaqoji Elmlər Akademiyasının nəzdində olan Gənc alimlər məktəbinin dinləyicisi olmuşdu.

O, pedaqogikanın və təhsilin tarixinə, ümumi pedaqogikaya dair tədqiqatların davam etdirməkdə idi. Tədqiqatçılıq səriştəsi, pedaqoji elmə marağı, arxivlərlə iş onu doktorluq dissertasiyası üzərində işləməyə həvəsləndirdi. Doktorluq dissertasiya mövzusunu "Qlobollaşma şəraitində Azərbaycan Respublikasında ali təhsilin modernləşdirilməsi" kimi təsdiq etdirdi. 2011-ci ildə dissertasiyanı müdafiə edərək pedaqogika elmləri doktoru elmi dərəcəsi, bir müddət sonra isə, (2017) professor elmi adını da aldı.

Təhsili elmdən, elmi təhsildən kənarda təsəvvürə gətirmək, sadəcə, qeyri-mümkündür. Hümeyir müəllim Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda (*hazırda Təhsil İnstitutu*) işləmək, elmi-tədqiqatla məşğul olmaqla yanaşı ali təhsil müəssisələrində mühazirə və seminar məşğələləri aparırdı.

**İdarəetmə özü önəmli bir qabiliyyətdir**

Hümeyir müəllim yaxşı idarəetmə səriştəsinə malikdir. Uzun illər Azərbaycan ETPEİ-də (hazırda Təhsil İnstitutu) doktorantura (hazırda Elmi-pedaqoji kadr hazırlığı) şöbəsinin müdiri; eyni zamanda universitet prorektoru, kollec direktoru vəzifələrində çalışıb. 2000-ci ildən hal-hazıra kimi Təhsil İnstitutunun Elmi-pedaqoji kadr hazırlığı şöbəsinin müdiri vəzifəsində uğurla işləyir.

**Tədqiqatlarının əsas istiqamətləri**

Professor H.H. Əhmədov respublikamızda ilk dəfə milli təhsil sisteminin təkmilləşdirilməsi, inkişaf etdirilməsi və idarə olunması sahəsindəki problemləri nəzəri-konseptual, eyni zamanda praktik cəhətdən araşdırmış, prosesin dinamikasına aydınlıq gətirmişdir. Ali təhsilin keyfiyyətinin yüksəldilməsi üzrə başlıca komponentləri müəyyənləşdirmiş, yeni təhsilşünaslıq anlayışını elmi dövriyyəyə daxil etmişdir. Təhsilin inkişafının qanunvericilik və normativ-hüquqi təminatını, təhsilin idarə olunmasının dövlət-ictimai əsaslarının formalaşdırılması, tədris müəssisələrinin nəzəri və praktik baxımdan müstəqilliyinin genişləndirilməsi istiqamətində müxtəlif mexanizmləri təcrübədən keçirmiş, təhsilin məzmun və strukturunun yeniləşdirilməsi sahəsində tədqiqatlar aparmış, onların səmərəliliyi, tədris müəssisələrinin maddi-texniki bazasının təmin olunması yolları və s. bu kimi məsələləri qarşılıqlı əlaqədə və reallıqdan çıxış edərək müasir standartlara əsasən dəyərləndirmişdir.

Hümeyir müəllim öz tədqiqatlarında təhsil sistemində islahatların başlanmasından ötən müddətdə baş verən prosesləri müasirlik mövqeyindən birinci olaraq qiymətləndirmiş, dövlət inhisarı ilə, mərkəzi idarəçiliklə, ideoloji tabeçiliklə səciyyələnən sovet təhsil sistemindən Avropa ali təhsil məkanına inteqrasiya edən ali təhsil sisteminə keçid proseslərini pedaqoji-psixoloji və aksioloji cəhətdən təhlil etmişdir. O, təh-

silin hüquqi nizamlanmasının elmi əsaslarını müəyyənləşdirmiş, Azərbaycanda ilk dəfə olaraq ali məktəblər üçün "Təhsil hüququ" fənninin proqramını və dərsliyini hazırlamışdır.

**Xeyirxahlıq mücəssəməsi**

Hümeyir müəllimin paxıllıq, bədxahlıq, pislik və mərdimazarlıqla arası yoxdur. Həmin mənfi keyfiyyətlərin düşmənidir. Hümeyir müəllim yaxşı bilir ki, Mark Avrelini qeyd etdiyi kimi, "Ən yüksək elm - müdriklikdir, ən yüksək müdriklik isə xeyirxahlıqdır". H.H. Əhmədov çoxillik həyat təcrübəsində yəqin etmişdir ki, "Xeyirxahlıq heç zaman köhnəlməyən libasdır" (*T.H. Devid*).

Neçə il əvvəllər mən Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü seçilmişəm. Bu, Hümeyir müəllimin təşəbbüskarlığı və köməyi ilə olub. O, məndən başqa neçə nəfərə həmin akademiyanın müxbir və həqiqi üzvü olmaqda öz köməyini göstərib.

Birlikdə kitablar yazmışıq. Onları qeyd edim: "Qız gəlin köçür", "Toydan əvvəl və sonra", "Müqəddəs şəxslərin tərbiyəvi fikirləri", "Elmi-pedaqoji və pedaqoji kadr hazırlığı problemləri".

**Elmi kadr hazırlığındakı rolu**

Elmi rəhbər və rəsmi opponent, yaxud rəsmi rəyçi kimi elmi kadrların yetişməsində fəallıq göstərib və göstərir. Yaxınlarda elmi rəhbəri olduğu Müjkan Məmmədzadə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Tələbələrdə pedaqoji prosesi idarəetmə mədəniyyətinin formalaşdırılması" mövzusunda dissertasiya müdafiə etmiş və diplomunu almışdır. Hazırda professor H.H. Əhmədov elmlər doktoru və fəlsəfə doktoru proqramları üzrə bir sıra doktorant və dissertanta elmi məsləhətçilik və elmi rəhbərlik edir.

Hümeyir müəllim xeyli vaxtdır ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən N 02.061 və hazırda FD 2.15; Azərbaycan Respublikasının Təhsil İnstitutunda fəaliyyət göstərmiş N 02.191 dissertasiya şuralarının üzvü olmuşdur.

**Müxtəlif akademiyalarda həqiqi üzvlük**

Professor Hümeyir Əhmədov bir sıra əcnəbi akademiyaların, o cümlədən Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının (2007), Təhsilin İnformasiyalaşdırılması Akademiyasının (2012), Rusiya Hüquq Elmləri Akademiyasının (2008), Rusiya Təbiətşünaslıq Akademiyasının (2018) həqiqi üzvü; Rusiya Təhsil Akademiyasının xarici üzvüdür (2006). Vaxtaşırı həmin akademiyaların tədbirlərində, hesabat iclaslarında, elmi konfranslarında iştirak və çıxış edir.

Bu qədər xarici akademiyanın həqiqi üzvü olmaq hər oğulun işi deyil. Bu, Azərbaycan aliminin böyük hünərdir. Onun elminin və helminin etiraf edilməsidir. Elm və helm bir-birini tamamlayan anlayışlardır. Belə deyirlər ki, helmi olmayanın elmi yarımçıqdır. Çox yaxşı ki, Hümeyir müəllimin elmi də var, helmi də.

**Elmi yaradıcılığı**

Hümeyir müəllim bir çox monoqrafiyaların, kitab və kitabçaların, yüzlərlə elmi məqalənin müəllifidir. Əsərləri həm respublikamızda, həm də xarici ölkələrdə işıq üzü görmüşdür. Diqqət yetirək: "Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti" (1997), "Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi" (2006, P.B. Əliyevlə), "Azərbaycan təhsilinin insan resursu" (rusca) (2007), "Ali təhsilin modernləşdirilməsi (2008), "Azərbaycan təhsilinin inkişaf strategiyası (2010), "Rusiya Federasiyasında elmin konstitusiya-hüquqi əsasları, elmi və elmi-texniki fəaliyyət" (rusca) (2010), "Elmi-pedaqoji və pedaqoji kadr hazırlığı problemləri (2018).

Professor Hümeyir Əhmədovun Azərbaycan və ingilis dillərində çap olunmuş "Azərbaycan təhsilinin inkişaf strategiyası" monoqrafiyasında ölkəmizdə təhsil siyasətinin istiqamətlərinin və təhsil sisteminin əsaslı surətdə yenidən qurulması prosesində baş vermiş sosial-pedaqoji hadisələrin mürəkkəbliyi, ziddiyyətləri ətraflı təhlil süzgəcindən keçirilmiş, islahatların qaçılmazlığı və labüdlüyü əsaslandırılmışdır.

Hümeyir müəllimin tədqiqatların nəticələri respublikamızın qəzet və jurnallarında, müxtəlif ölkələrin çox nüfuzlu elmi jurnallarında dərc olunur. Məsələn, Web of Science" və "Scopus" bazalarına daxil olan https: //www.webofscience.com/wos/author/record/33221329 və s.

**Beynəlxalq tədbirlərdə iştirakı**

Hümeyir müəllim 2004-cü ildən "Pedaqoqlar sülh və qarşılıqlı anlaşma uğrunda" Beynəlxalq hərəkatının Azərbaycan təşkilatının üzvüdür. Bu sahədə səmərəli fəaliyyət göstərir.

**Dərsliklər müəllifi**

Hümeyir müəllim ümumtəhsil [“Texnologiya” (II-X siniflər üçün)], orta ixtisas (“Pedaqogika”) və ali məktəblər üçün (“Pedaqogika”, “Alqoritmlər nəzəriyyəsi“, “Управленческая педагогика и психология”, “Təhsil hüququ”, “İnformatikanın tədrisi metodikası”) dərsliklərin müəllifidir.

“Texnologiya” dərslikləri rus və ingilis dillərinə də çevrilmişdir.

**Təltifləri**

Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi döş nişanına (2006), YUNESKO-nun müəllimi” (2008, Kazan şəhəri), Rusiya Federasiyasının 3-cü dərəcəli “Borc və Şərəf” (“Долг и честь») ordeninə (2008), Rusiya Federasiyası Elm və Təhsil Nazirliyinin K.D. Uşinski medalına (2009), Rusiya Təhsil Akademiyası Rəyasət heyətinin qərarı ilə “Əməkdar Elm və Təhsil Xadimi” fəxri adına (2017) layiq görülmüşdür.

Bundan başqa, Rusiya Təhsil Akademiyasının təqdimatı əsasında “Avropa Elm və Sənaye Konsorsium tərəfindən “Əmək və elm” ordeni ilə təltif olunmuşdur. Xarici ölkələr azərbaycanlı alimin elmini bu qədər yüksək qiymətləndirməsi qürur hissi doğurur.

Hümeyir müəllim eyni zamanda “Qızıl qələm” media mükafatı laureatıdır.

2021-ci ildə o, respublika Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə “Tərəqqi” medalına layiq görülmüşdür.

**Jurnalların redaksiya heyətlərində üzvlüyü**

Professor Hümeyir Əhmədov Azərbaycan Respublikasının Təhsil İnstitutunun “Elmi əsərlər”inin baş redaktorunun müavinidir. Bundan başqa, “Azərbaycan məktəbi” və “Məktəbəqədər və ibtidai təhsil jurnalı”nın, “Kurikulum”, “Pedaqogika” və Bakı Qızlar Universitetinin “Elmi əsərlər”inin, həmçinin Moskvada nəşr olunan “Право и жизнь”, “Муниципальное образование: инновации и эксперимент”, “Образование. Наука. Научные кадры”, Çex respublikasında nəşr olunan “Veda perspektiv” elmi dərgisinin, indeksli “Revista Genero e İnterdisciplinaridade” və s. jurnallarının redaksiya heyətlərinin üzvüdür.

Məqaləni tamamlayıb oxumaq üçün Hümeyir müəllimə verəndə o, babası Mustafa haqqında xatirələrini danışdı. Bu məqalədə onu da yada salmağımı xahiş etdi. Sən demə, Hümeyir ata yolu ilə yanaşı eyni zamanda baba yolunun da davamçısıdır. Mustafa kişi 1907-1917-ci illərdə Şuşada ali ibtidai məktəbi bitiribmiş, həm də 1926-cı ildə Azərbaycan Pedaqoji İnstitutunda fizika-riyaziyyat ixtisası üzrə ali təhsil alıbmış. Səmərəli pedaqoji təhsillə məşğul olub. 37-ci ilin qurbanlarındandır. Hüseyn müəllim öz atası Mustafanın yolunu davam etdirsin deyə oğlu Hümeyirə riyaziyyat fakültəsini seçməyi məsləhət görüb. Deməli, Hümeyir riyaziyyat müəllimi ixtisasına seçərək, həm də baba yolunu davam etdirib.

Çox hörmətli Hümeyir müəllim! Aylar, illər dolandı. Gəlib 65 yaşına çatdın! 65 yaş nədir ki? 70 yaşa, 80 yaşa, 90, 100 yaşa!!! Uğurlarının sayını artır, sağlamlığın qayğısına qal, həmişə gümrah və nikbin ol!!!

Sənin Elmi və pedaqoji fəaliyyətinin 45 illiyi, rəhbərlik etdiyin Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin 90 illiyi və anadan olmağının 65 illiyi tamam olur.

Bu yubileylər günü münasibətilə səni ürəkdən təbrik edirik!!!

**Problemin aktuallığı**. Pedaqogika elmləri doktoru, professor Hümeyir Əhmədovun anadan olmasının 65 illiyi tamam olur. Məqalə onun həyat və yaradıcılığına həsr olunmuşdur.

**Problemin yeniliyi**. Professor Hümeyir Əhmədovun elmi-pedaqoji fəaliyyəti diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə pedaqogika tarixi üzrə tədqiqat aparan gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**E-mail**: a.abbasov@arti.edu.az
**Rəyçilər**: *ped.elm.dok., prof.* **İ.H. Cəbrayılov**,
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 12.09.2023